# Prezident İlham Əliyevin möhtəşəm diplomatiyası böyük zəfərlə nəticələndi




***Prezident İlham Əliyev, Azərbaycan Ordusu və çətin məqamda yumruq kimi birləşməyin nümunəsini sərgiləmiş xalqımız son hərbi əməliyyatlarda, sözün həqiqi mənasında, yeni reallıqlar yaranmasını təmin etdilər. Çünki indiyədək konfliktoloqların leksikonunda belə bir qənaət var idi ki, bütün müharibələr diplomatiyanın nəticəsiz qaldığına görə başlanır. İlham Əliyev isə sübut etdi ki, ən mükəmməl diplomatiyanın nəticəsiz qalmasından sonra belə zəfər çalmaq mümkündür...***

2020-ci il Azərbaycan üçün çətin, eyni zamanda, tarixi əhəmiyyətli bir il oldu. Azərbaycan Ordusu 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrini darmadağın etməklə yanaşı, düşmənə məğlubiyyətini etiraf etməyə və ağ bayraq qaldırmağa da məcbur etdi. Torpaqlarımızın işğaldan azad olunması 30 ildən artıq həyata keçirilən müdrik və məqsədə hədəflənmiş çoxşaxəli siyasət nəticəsində mümkün oldu. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin davam etdirdiyi siyasət sayəsində Azərbaycanın ərazi bötövlüyü bərpa edildi.

2003-cü il oktyabrın 15-də Prezident seçildiyi ilk gündən Qarabağ münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirən ölkə başçısı İlham Əliyev bu məsələdə yalnız Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirmişdi. Azərbaycan Prezidenti bütün xarici səfərlərdə, eləcə də, Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək, Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulayırdı. Bununla yanaşı, dövlət başçısı Azərbaycanın xarici siyasət kursunun mühüm tərkib hissələrindən birinə çevrilən Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasının tərəfdarı olduğunu bildirərək, beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdi. Prezident İlham Əliyev son on yeddi il ərzində Dağlıq Qarabağ münaqişəsinin tarixi ədalət və beynəlxalq hüquq normaları əsasında həllinə nail olmaq üçün məqsədyönlü ardıcıl siyasət həyata keçirirdi. Xüsusilə qeyd etmək lazımdır ki, Prezidentin bu istiqamətdə çoxşaxəli fəaliyyətinin vacib aspekti münaqişə reallıqlarının dünya ictimaiyyətinə çatdırılması olmuşdu. Prezident İlham Əliyev bütün beynəlxalq meydanlardan səmərəli istifadə edərək, Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın prinsipial və ədalətli mövqeyini unikal diplomatik məharəti ilə əsaslandırmışdı.

Məsələn, 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında iştirak edən Prezident İlham Əliyev çıxışında qlobal və regional geosiyasətin ən aktual məsələləri fonunda Rusiya-Azərbaycan münasibətlərinin strateji xarakterinə, Ermənistan rəhbərliyinin o zaman yol verdiyi məsuliyyətsiz bəyanatlara, Azərbaycanın bu məsələdəki konkret mövqeyinə və dövlət quruculuğunda əldə edilən nailiyyətlərə toxunmuşdu. Azərbaycan liderinin nitqində baş nazir Nikol Paşinyanın Qarabağ münaqişəsi ilə bağlı söylədiyi populist fikirlərə tutarlı cavab verməsi xüsusi marağa səbəb olmuşdu. Xatırladaq ki, baş nazir Nikol Paşinyan 2019-cu ildə Ermənistanın mövqeyi ilə bağlı belə bir "tezis" açıqlamışdı: "Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Bundan sonra elə qərar qəbul edilməlidir ki, Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ xalqlarını qane etsin".

*(ardı 4-cü səhifədə)*

Xalq qəzeti 2021. 10 sentyabr.S.1;4.

# Prezident İlham Əliyevin möhtəşəm diplomatiyası böyük zəfərlə nəticələndi

> ***Müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilib. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış bəyanat icra ediləcəkdir. Əks təqdirdə, Ermənistan daha da ağır duruma düşəcək. Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

*(əvvəli 1-ci səhifədə)*

Erməni rəhbərinin bu “tezisi”, əlbəttə ki, təxribat idi və Azərbaycan Prezidenti bu sərsəm yanaşmaya layiqli cavab vermişdi.

Azərbaycan Prezidenti qətiyyətlə bəyan etmişdi ki, Dağlıq Qarabağ tarixi, mədəni, demoqrafik, siyasi, geosiyasi və bütün digər mənalarda daim Azərbaycanın olmuşdur və ora indi də Azərbaycandır. Ölkə başçısı bir ildən sonra reallığa çevrilən və tarixə düşən ifadəni səsləndirmişdi: “Qarabağ Azərbaycandır və nida işarəsi”. Prezidentin bu ifadəsi dünyaya göndərilən diplomatik mesaj idi. Ölkə başçısı bu sözü ilə bildirmişdi ki, Azərbaycan Qarabağın işğalı ilə heç zaman barışmayacaq. Bu gün əminliklə deyə bilərik ki, Prezidentin “Qarabağ Azərbaycandır!” ifadəsi xalqımızı torpaqlarımızın işğaldan azad edilməsinə doğru məqsədinə daha da yaxınlaşdırdı. Münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Helsinki Yekun Aktının prinsiplərinə uyğun həll edilməli olduğunu hər zaman vurğulayan Prezident İlham Əliyev Azərbaycanın daim danışıqlar yoluna üstünlük verdiyini diqqətə çatdırmış, ancaq danışıqlar prosesinin sonsuza qədər davam edə bilməyəcəyini vurğulamışdı. Azərbaycan Prezidentinin Münxendə qarşı tərəfə verdiyi əsas mesaj olduqca aydın idi: “Danışıqlar Ermənistan tərəfinin hərəkətləri səbəbindən pozularsa, dərhal cavab tədbirləri görüləcək”.

Ölkə başçısı digər diplomatik qələbəsini beynəlxalq platformada– Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən Ermənistan-Azərbaycan münaqişəsinə həsr olunmuş panel müzakirələrdə qazanmışdı. Müzakirə zamanı Azərbaycan Prezidenti İlham Əliyev baş nazir N.Paşinyanı gerçək tarixə söykənən faktlarla susdurmuşdu.N. Paşinyanın özündən asılı olmayaraq, Qarabağın Azərbaycanın torpağı olmasını etiraf etməsi və sonradan düzəliş etməyə çalışması diqqətdən yayınmamışdı. Erməni baş nazirin əsassız və çürük fikirlərinə cavab olaraq Prezident İlham Əliyev Qarabağ haqqında həqiqətləri tarixi faktlara söykənərək açıq şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırmış və bununla da N.Paşinyanı çətin duruma salmışdı. Mütəxəssislərin sözlərinə görə, Münxendəki debat Prezident İlham Əliyevi öz xalqını sevən, ölkənin gələcəyini düşünən, torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacaq və azad etmək gücünə malik bir lider olduğunu göstərmişdi. Bu debat hər bir Azərbaycan vətəndaşında qürur hissi oyatmışdı. Şübhəsiz, Münxen Təhlükəsizlik Konfransında açıq debatlar Prezident İlham Əliyevin baş nazir Paşinyan üzərində qazandığı qətiyyətli və inamlı diplomatik qələbəsi ilə tarixdə qalacaq.

Prezident İlham Əliyev Ermənistanın informasiya siyasətinə, təbliğat maşınına növbəti ağır zərbəni MDB Dövlət Başçılarının 2019-cu ildə Aşqabadda keçirilən Zirvə toplantısında vurmuşdu. Ölkə başçısı faşist Qaregin Njdeyə Yerevanda abidə ucaldıldığını qeyd edərək, faşizmin Ermənistanın dövlət ideologiyası olduğunu tutarlı faktlarla sübuta yetirmişdi. Mütəxəssislərin sözlərinə görə, Azərbaycan Prezidentinin Zirvə toplantısında səsləndirdiyi fikirlər Ermənistanın MDB məkanında uzun illərdən bəri şəbəkələşdirməyə nail olduğu informasiya-təbliğat siyasətini təməldən sarsıtmış, erməni təbliğat maşınının təsiri altına düşən insanları düşünməyə vadar etmiş və ermənipərəst dairələrin mövqeyini zəifləmişdi. Heç kimə sirr deyil ki, mürəkkəb geosiyasi vəziyyətə malik regionlarda yerləşən ölkələrin qüdrətinin əsas amili güclü diplomatiya ilə dəstəklənən hərbi gücdür. Azərbaycan Prezidenti nüfuzlu beynəlxalq platformalarda erməni diplomatiyasına sarsıdıcı zərbələr endirməklə Qarabağın əsl sahibinə qayıtması üçün güclü zəmin yaratmışdı. Diplomatik arenada hər bir qələbə torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədə Azərbaycanın gücünü artırmışdı. Bütün bunlar Azərbaycanın Vətən müharibəsindəki qələbəsini şərtləndirən zəncirin vacib halqaları olmuşdu.

Beləliklə, Ermənistanın problemin həllinə deyil, status-kvonun qorunub saxlanmasına yönəlmiş siyasəti Azərbaycanın güclü diplomatik fəaliyyəti sayəsində iflasa uğradı. Azərbaycan Prezidenti İlham Əliyev Qarabağ münaqişəsinin həllində dəyişməz, prinsipial mövqe tutdu və onu ən yüksək kürsülərdən bəyan etdi. Ölkə başçısı Azərbaycanın ədalətli mövqeyini müdafiə etməklə yanaşı, milli iqtisadiyyatı inkişaf etdirdi, hərbi potensialı gücləndirdi və ölkənin siyasi mövqeyini möhkəmləndirdi. Bu gün birmənalı şəkildə demək olar ki, Prezident İlham Əliyevin Qarabağ siyasəti tam bəhrəsini verdi və Azərbaycanın xəbərdarlıqlarını nəzərə almayan Ermənistan məntiqi sonluqla üzləşdi. Qırx dörd günlük hərbi əməliyyatlardan sonra Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***